Respublika muğam ifaçılarının Beynəlxalq Muğam Festivalında iştirakını təmin etmək, istedadlı muğam ifaçılarını üzə çıxarmaq məqsədilə

**ƏMR EDİRƏM:**

1. III respublika muğam müsabiqəsi xanəndə və instrumental musiqi nominasiyaları üzrə 2013-cü ilin 11-20 fevral tarixlərində Bakı şəhərində keçirilsin.

2. Müsabiqənin əsasnaməsi, təşkilat komitəsi (əlavə 1) və münsiflər heyətinin tərkibləri (əlavə 2) təsdiq olunsun.

3. Qaliblərin seçilməsi Azərbaycan Milli Konservatoriyasına (S.Kərimi) və Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə (N.Kazımov) tapşırılsın.

4. Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsi (A.İbrahimov) müsabiqənin yüksək səviyyədə keçirilməsi üçün lazımi təşkilati işləri həyata keçirsin.

5. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) təsdiq edilmiş xərclər smetasına uyğun olaraq müsabiqənin keçirilməsi ilə bağlı xərclərin ödənilməsini təmin etsin.

6. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc edilməsini və əsasnamə ilə birlikdə Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

7. Əmrin icrasına nəzarət nazir müavini Q.Novruzova həvalə olunsun.

**Əsas:** Azərbaycan Respublikası Təhsil nazirinin yanında 22.11.2012-ci il tarixdə keçirilən iclasın protokolu.

***Misir MƏRDANOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***27 noyabr 2012-ci il***

***№ 2119***

---

**Əlavə**

**1. Müsabiqənin əsasnaməsi, münsiflər heyətinin tərkibləri**

**2. Təşkilat komitəsi**